525- ci qəzet

3

9 oktyabr / 2020

# "Bakı Dövlət Universiteti mənim idealımdır"

**Bu ilin bütün pandemiya çətinliklərinə, dünyada və eləcə də Azərbaycan təhsilində özünü göstərən narahatlıqlara baxmayaraq, bizim xalqımızın oxumaq, savadlanmaq, ali təhsil almaq həvəsi, istəyi yenə də hər şeyə qalib gəldi. Dünənin minlərlə abituriyenti bu gün artıq ali təhsil müəssisələrimizin birinci kurs tələbəsi adını almaq sevincini yaşamaqdadır. Bizim Bakı Dövlət Universitetinin çoxsaylı fakültələrinə minlərlə tələbə qəbul edilmişdir. Onlardan biri də BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat kimi mükəmməl bir fakültəsinə qəbul olmuş Nərminə Bayramlıdır. Biz Nərminə ilə əlaqə saxlayıb ondan kiçik bir müsahibə aldıq.**

**- Nərminə, salam! Səni ürəkdən təbrik edirəm. Tanrı səni ən böyük arzuna çatdırıb. Tələbə olmağın sevincini necə yaşayırsan?**

- Salam, bəli, tələbə olmaq arzuma çatdım, indi isə ailəm, yaxınlarım ilə sevincimi paylaşıram.

**- Nərminə, sənin iki cəhətdən bəxtin gətirib: Birincisi, Azərbaycanın ən yüksək səviyyəli Universitetinə - BDU-ya qəbul olmusan, ikincisi, bu universitetin ən yaxşı fakültəsini seçmisən. Bu seçmin nəylə əlaqədar oldu?**

- Bakı Dövlət Universitetinin İqtisadiyyat fakültəsini seçdim, çünki ailəmizdə də iqtisadçı var. Hələ 7-ci sinifdən bu yana Bakı Dövlət Universiteti mənim idealım olub, sonda da bəxtim gətirdi, mən bu ixtisası qazandım və öz idealıma qovuşdum...

**- Nərminə, bitirdiyin orta məktəb və müəllimlərin haqqında nə deyərdin?**

- Orta təhsilimin böyük hissəsini 95 saylı tam orta məktəbdə almışam, müəllimlərimizin hər biri savadlı idi və biliklərini maksimum dərəcədə bizə öyrətməyə çalışırdılar. Ailəmizin yaxşı tanıdığı Şəlalə Rəhimovanın əlavə tarix dərsləri də mənə çox kömək oldu. Ona da sizin vasitənizlə ayrıca təşəkkür edirəm.

**- İstədiyi Universitetə, istədiyi ixtisasa qəbul olmaq üçün gələn ilin abituriyentlərinə hansı məsləhətləri verərdin?**




- Çalışsınlar və istəklərindən geri dönməsinlər, abituriyentlik dönəmi çətindir, amma nəticəni gördükcə bütün çətinliklər şirin olur. İnsan "nə yaxşı ki, geri dönmədim yaxşı ki, tələbə adını qazandım" deyir.

**- Mən bir daha səni təbik edirəm. İndi biz səninlə artıq bir ali məktəbdəyik.**

- Sağ olun, mən indi Bakı Dövlət Universitetini "mənim Universitetim" adlandırıram, bu, həyatımın ən xoşbəxt anıdır.

**Sara Parlanova**

**BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin III kurs tələbəsi**